


### *ƏMƏKDAR JURNALİST ƏLİRZA BALAYEV :*
## "DİN MƏNİM ÜÇÜN ALLAHA İNAMDIR, İMANDIR"



*1944-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1966-cı ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyasında elmi redaktor işləmişdir. 1968-1973-cü illərdə Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin Təbliğat və mədəni-kütləvi işlər şöbəsində təlimatçı, bölmə müdiri, şöbə müdirinin müavini olmuşdur. 1973-2008-ci illərdə "Azərbaycan gəncləri" qəzeti baş redaktorunun müavini, "Savalan", "Bakının səsi", "Bakı post" qəzetlərinin, "Elm və həyat" nəşriyyatının baş redaktoru vəzifələrində çalışmışdır. 2008-ci ildən Xəzər Universitetinin nəşr etdiyi "Xəzər Xəbər" jurnalı baş redaktorunun müavinidir.*

**– Din dedikdə ilk olaraq nə düşünürsünüz? Həyatınızın hansı anında hiss etdiniz: "Nə yaxşı ki,dinimiz var?"**

– Böyük Mirzə Cəlilin təbirincə desəm, gözümü açandan "Allahu Əkbər" sədasını eşitmişəm. Atam dindar adam idi. İslamın qatı təəssübkeşi kimi dindən hər cür yayınmalara, sapmalara qarşı "bidətdir" deyə, etirazını bildirərdi.

Aşağı siniflərdə oxuyarkən məktəbdən evə dönən zaman soruşardı: bu gün nə oxudunuz, sizə nə öyrətdilər? Günlərin birində onun bu sualı müqabilində dedim: müəllim bizə öyrətdi ki, Allah yoxdur, əgər ata-ananız sizə desələr ki, Allah var, inanmayın, Allah yoxdur.

Atamın rəngi dəyişdi, qanı qaraldı. Mən bunu hiss etsəm də, o, əhvalını büruzə vermədi. Sadəcə, həmin gündən etibarən mənə verməyə başladığı dərs uzun çəkdi və məndə Allaha inam, dini əqidə tərbiyə etdiyinə əmin olana qədər davam etdi. Ümumiyyətlə, daha heç vaxt tərbiyəmi, əxlaqımı sovet məktəbinin ümidinə qoymadı. Yuxarı siniflərdə oxuyanda Xruşşovun "Yeni adam" konsepsiyasını necə məsxərəyə qoyduğunu və bunun nə demək olduğunu mənə təkidlə izah etdiyini yaxşı xatırlayıram. Sonralar onun "Yeni adam"a verdiyi xarakteristikasını Çingiz Aytmatovun yaratdığı "Manqurt" obrazında gördüm. İndi hər dəfə o vaxtlar "Yeni adam" kimi tərbiyə olunmuş ziyalılarla rastlaşanda, məni o mənəvi fəlakətdən xilas etdiyinə görə atama minnətdar oluram.

Bəsirət gözü, qəlb gözü olmayan şəxsin Allahın varlığına inanması müşkül məsələdir, mümkün deyil. Ötən əsrin 30-cu illərində SSRİ-də allahsızlıq hərəkatı tüğyan edəndə, məbədlər söküləndə Türkmənistan məktəblərinin birində baş vermiş hadisə bu mənada ibrətamizdir. Müəllim uşaqlara demişdi ki, mən sizi görürəm, siz də məni görürsünüz, deməli, biz varıq. Var olan şey görünər. Görünməyən şey yoxdur. Geri qalmış insanlar varlıqların bir yaradıcısı olduğunu söyləyirlər. Bu yaradıcının var olduğuna inanmaq yanlışdır. Çünki biz onu görmürük. Uşaqlardan biri soruşmuşdu ki, müəllim, siz bunu ağlınızlamı deyirsiniz? Müəllim "əlbəttə" cavabını vermişdi. Şagird demişdi: buna inanmaq çox çətindir, çünki əgər ağlınız olsaydı, biz onu görərdik...

Hadisə qeyri-adi olduğuna görə sürətlə yayılmış və xarici ölkələrin mətbuatı bu barədə yazmışdı.

Başqa belə bir ibrətamiz əhvalatı Türkiyədə

nəşr olunan çoxcildli "Övliyalar ansiklopedisi"ndə oxumuşam. Bir ateist alim müsəlman ölkələrindən birinə gəlir və elan edir ki, ən görkəmli, bilikli üləmalarınızı toplayın, mən onlara Allahın yoxluğunu sübut etmək istəyirəm. Xəlifə vaxt təyin edir və ölkənin ən məşhur din alimləri məclisə dəvət olunurlar. Həmin vaxt məclis toplansa da, ən məşhur alimlərdən biri gəlib çıxmır və onu gözləməli olurlar.

Həmin alim məclisə gələndə xəlifə ondan gecikməyinin səbəbini soruşur. Cavab verir ki, bura gələrkən elə bir maraqlı hadisə ilə rastlaşdım ki, durub tamaşa etməməyi bacarmadım. Xəlifə hadisənin nədən ibarət olduğunu soruşanda: "mən yol ilə gələrkən, böyük bir ağac yıxıldı, taxtalara bölündü, taxtalar qayıq oldu və dənizdə üzməyə başladı", – deyə cavab verir.

Ateist təəccüblə deyir: "Sizin ən böyük aliminiz budur? Görün o, nə danışır? Ağac da özbaşına yıxılıb taxtalara çevrilər, taxtalar da özbaşına qayıq olub dənizdə üzər?" Müsəlman alim ona: "Ay zavallı, mənim dediklərim özbaşına olmazsa, bu aləm, yer-göy, nizamla hərəkət edən Günəş, Ay, digər göy cisimləri özbaşına necə yaranıb", - deyə cavab verir. Bununla da məsələ bitir və ateist gülünc vəziyyətə düşüb, məclisi tərk edir...

Allah hər zərrədə görünür. Ancaq bunu, dediyim kimi, bəsirət gözü olanlar görə bilər. Beləliklə, din mənim üçün Allaha inamdır, imandır. İmanlı şəxs həyatın heç bir vaqiəsində özünü itirməz, təmkinini pozmaz. Ən Ulu Qüvvəni özünə arxa hesab edən, ona sığınmaq imkanı olan insan nədən çəkinməlidir ki?

**– Müxtəlif mənəvi dəyərlərin universallaşdığı bir dövrdə din də universallaşa bilərmi? Sizcə, universal din necə ola bilər?**

– Söhbət üç dünya dinindən – Buddizm, Xristianlıq və İslamdan gedə bilər. Bu dinlər min illər ərzində öz əlahiddəliklərini qoruyub saxlamışlar. Bundan sonra da onların həm bir-birinə münasibətdə, həm də ayrı-ayrılıqda öz daxillərində universallaşma prosesinin baş verəcəyi, mənim nəzərimcə, istisna olunur.

**– Sizcə, məbədə yol arxada qalıb, yoxsa irəlidədir? Əgər sizdən soruşsalar ki, Əlirza müəllim, məbədin yolu haradandır, necə bələdçilik edərdiniz?**

– Məbədin yolu imandan başlayır. İmanı olanlar bu yola bələddirlər. İmansızlara bələdçilik etməyin isə əhəmiyyəti yoxdur. O ki qaldı məbədə gələnlərə, ümumiyyətlə, bu, zahiri görünüşdür. Məbədə gələnlərin sayı ilə dindarların sayı eyni deyil. Lakin əsas məsələ məbədə gələnlərin bir hissəsinin, yoxsa çox hissəsinin hansı əməl sahibi olmasıdır. Əməllərə gələndə, böyük Füzulinin tövsiyələri yada düşür:

*Ey olan sakini-məscid nə bulubsan bilməm,*
*Buriyasında onun buyi-riyadən qeyri.*
Yaxud:
*Könül, səccadəyə basma ayaq, təsbihə əl vurma,*
*Namaz əhlinə uyma, onlar ilə durma, oturma.*

Bütün klassik ədəbiyyatımıza xas olan bu antiklerikal *(dini hakimiyyətin qurulmasına qarşı siyasi cərəyan – **Red.**)* istiqamət sovet dövründə ədəbiyyatşünaslar, ədəbiyyat tarixçiləri tərəfindən hakim ideologiyanın təsiri ilə din əleyhinə mübarizə kimi şərh olunmuşdur.

**– Din nə zaman mədəniyyət, nə zaman xurafat və nə zaman fanatizmdir? Bu meyillərin dərkində oxucularımıza, xüsusilə də müxtəlif dini cərəyanların fəallaşdığı bir zamanda öz yerini tapa bilməyənlərə, aldananlara nə məsləhət verərdiniz?**

– Din elə dindir. Hər dinin zəminində yaranan mədəniyyətlər var ki, zaman keçdikcə, xüsusən də indiki qloballaşma əsrində onların qovuşması prosesi baş verir. Bu prosesin həm müsbət, həm də mənfi cəhətləri haqqında çox deyilmiş, çox yazılmışdır. Hələ ötən əsrin əvvəllərində Hüseyn Cavid "Uçurum" adlı dram əsərində qəhrəmanı Uluğ bəyin dili ilə deyirdi:

*O gün ki İstanbulda gənclik fransızlaşdı,*
*Getdikcə türk övladı uçuruma yaxlaşdı.*
*Yurdumuzu sardıqca düşkün Paris modası,*
*Hər kəscə örnək oldu sərsəm firəng ədası.*
*Sərxoşluq, ağılsızlıq sardı bütün gəncləri,*
*Zəhərləndi getdikcə məmləkətin hər yeri.*
*Avropadan – fəzilət, hümmət, ciddiyyət, vüqar*
*Dururkən – yalnız çürük bir zübbəlik aldılar.*

Dini zəmində formalaşmış əxlaq daha mühüm amildir və o, mədəniyyətə nisbətən müstəqilliyini daha çox qoruyub saxlaya bilir.

Xurafatı, mövhumatı yaradan əsas səbəb savadsızlıqdır. Heç kəs üçün sirr deyil ki, müsəlman ölkələrində adambaşına təhsillilərin sayı çox aşağı səviyyədədir. Azərbaycanda bu gün Şeyx Nəsrullah ölü dirildə bilməz, Dərviş Məstəli şah Parisi partlada bilməz. Ancaq yüz il əvvəl kütləvi savadsızlıq şəraitində bu mümkün idi. Cəlil Məmmədquluzadə-

nin öz felyetonlarında təsvir etdiyi hadisələri yada salın. Əhalinin savad səviyyəsi yüksəldikcə, mövhumatın da meydanı daralır. Böyük fəlakət olan dini fanatizmi də mən şüurca geriliklə əlaqələndirirəm.

Son zamanlarda azərbaycanlılar arasında İslam dinindən dönüb, Xristianlığı qəbul edənlər, Krişna dini icmasına daxil olanlar var. Bu, onların konstitusiyamızla qorunan hüququdur. İslam dininin müəzzəmliyini görməyən adamın məsləhətə nə ehtiyacı?

**– Cəmiyyət üçün yaxşı azərbaycanlı kimi formalaşmaqdan ötrü dindar olmaq vacibdir? Azərbaycançılıq düşüncəsində dinin yerini necə görürsünüz?**

– Qətiyyən vacib deyil. Xalqımızın əsrlər boyu formalaşmış mənəvi-əxlaqi dəyərlərini (bu dəyərlərin bərqərar olmasına dinimizin də təsiri şübhəsizdir) əxz edən hər kəs özünün saleh əməlləri ilə yaxşı azərbaycanlı ola bilər. Azərbaycançılıq ideyası ümumxalq düşüncəsidir. Bu düşüncədə dinimizdən nə dərəcədə bəhrələnmək hər kəsin öz dünyagörüşü ilə əlaqədar olan şəxsi məsələdir.

**– İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin din xadimləri çox rahatsızdırlar ki, dindarlıq zəifləyir. Son iki yüz il Qərb filosofları arasında belə bir fikir də yaşayır ki, din yox olmaga məhkumdur. Söylənənlər maddiyyatın mənəviyyat üzərində üstünlüyüdür, yoxsa mənəviyyatın maddiyyat qarşısında zəifliyi?**

– Onların narahatçılığı üçün ciddi əsas vardır. Həmin ölkələrin cəmiyyətşünas mütəxəssisləri öz ölkələrindəki vəziyyəti artıq neçə illərdir ki, "postxristianlıq" kimi səciyyələndirirlər. Mənəvi aşınmaya maddi şəraitin yüksək olması da təsir göstərə bilər. Lakin ən əsas səbəb insanları əbləhləşdirən "kütləvi mədəniyyət", sosial internet şəbəkələri və yüzlərlə müvafiq saytlar və portallardır. "Kütləvi mədəniyyət"in ən uzaqvuran silahı isə insanın, xüsusən, yeniyetmə və gənclərin mənəviyyatını eybəcərləşdirməyə xidmət edən filmlərdir, serialların da təsiri az deyil.

**– Düşüncə adamını yaşadan həyatın qurduğu, ortaya atdığı tapmacalara, möcüzələrə cavab tapmasıdır. O, həyatın bütün çalarlarını – əzab-əziyyətini, sevincini qavrayır və çoxlarını öz ardınca aparır. Əlirza müəllim, biz bu gün Sizə ədəbi mühütimizin bir üzvü kimi müraciət edirik. Həyat haqqında hansı qənaətlərə gəlmisiniz?**

– Həyat, əslində, necə varsa, elə o cür gözəldir. Sizin dediyiniz kimi, çətinlikləri, əziyyətləri ilə... Bunlarsız cəmiyyət utopik cəmiyyət olardı. Bununla belə, insanlar daim yaşadıqları cəmiyyəti təkmilləşdirməyə çalışıblar və çalışırlar. Ancaq əldə etdikləri daha çox iqtisadi inkişaf və texniki tərəqqi olmuşdur. Halbuki, həyatın gözəlliyi üçün bunlar kifayət deyil, cəmiyyətin mənəvi-əxlaqi ab-havası da əsasdır.

Şəxsi qənaətə gəlincə, həyatın mənasını mən işdə, əməkdə, zəhmətdə və məsuliyyətli olmaqda görürəm. Əgər hər kəs öz başı üzərində böyük rus şairi Yevgeni Yevtuşenkonun bu sözlərini (yaxud bu məzmunda olan atalar sözü və ya aforizmi) assaydı ki,

*Моя идеология – работа*
*До одурения, до седьмого пота,*

onda həm cəmiyyət həyatı, həm də insanların həyatı indikindən fərqli olardı. Bu məzmunda Azərbaycan folkloru və ədəbiyyatında da çoxlu gözəl nümunələr var. Lakin nədənsə, gənclik illərimdən qəlbimə yatan rus şairinin bu iki misrası olub...

**– İnsanların daxilində baş verən dəyişikliklər, xalqların, millətlərin öz soyuna qayıdışı, cəmiyyətimizin çoxcəhətli, sürətli inkişafı nələri üzə çıxartdı – yaxşı, yaxud pis?**

– Yəqin ki, söhbət postsovet məkanından gedir. Hər hansı bir imperiya dağılanda müstəqillik əldə edən xalqların həyatında ağır sınaqlar baş verir. Azərbaycan üçün ən böyük məhrumiyyət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ərazisinin 20 faizini itirməsi, bir milyon qaçqın və məcburi köçkünü qəbul etməsi oldu. Ümumiyyətlə isə Azərbaycan başqa ölkələrə örnək ola biləcək sürətli inkişaf yoluna qədəm qoydu və bu yolla inamla irəliləyir. Xalqımıza gəldikdə, sovet hakimiyyəti illərində xarici politoloqlar yekdilliklə yazırdılar ki, SSRİ-dəki türk-müsəlman xalqları arasında müstəqilliyə ən çox hazır olanı Azərbaycan xalqıdır. Alman alimi Albert Virt hələ 1918-ci ildə çap etdirdiyi "Qafqaz: 1918" adlı kitabında Azərbaycan xalqının dövlətçilikdə və mədəniyyət sahəsində böyük qüdrət və bacarığa malik əsl kübar bir millət olduğunu qeyd edəndən sonra bu sətirləri yazmışdı: "Azərbaycan türkləri bu gün ümumi türkçülük irfanının ən mühüm sütunu olduqları kimi, türkizm uğrunda da böyük quruculardır. İstiqlaliyyətinə nail olduğu təqdirdə bu ölkə təsəvvür

edilməyəcək dərəcədə böyük əhəmiyyətə malik olacaqdır".

Bu deyilənlərin bu gün həqiqətə çevrildiyinin canlı şahidləriyik. Bunlar müstəqilliyimizin ən mühüm müsbət cəhətləridir. Mənfi cəhətləri mənəvi-əxlaqi sferada axtara bilərik. Korrupsiya, insanların, xüsusən gənclərin bir hissəsinin "kütləvi mədəniyyət" daşıyıcılarına çevrilməsi və qadın alveri mənfi cəhətlərin ən əsaslarıdır.

**– Bir sual da maraq doğurur: Azərbaycanda dini təfəkkürün formalaşmasında, dini maarifçilik istiqamətində görülən işlərdə, onun düzgün təbliği və dərk edilməsində hələ də məchul qalan məqamlar var. Burada "ziyalı amili"nin rolu, günahı və səhvi...**

– Müstəqilliyimizə qovuşandan sonra dinə böyük maraq oyandı. Bu, təbii idi. Lakin proses cəmiyyətdə lazımi baza olmadığından kor-təbii gedirdi. Dini maarifçilik istiqamətində bu gün də görülən işləri kifayətləndirici saymaq olmaz. Mən düşünürəm ki, orta məktəbdə, ali məktəbdə dinlərin tarixi və əsasları tədris olunmalıdır (əlbəttə, islam dininə üstünlük verməklə). Bu, dövlət ilə dinin ayrı olması haqqında konstitusiya müddəasına zidd deyildir.

Ziyalı amilinə gəldikdə, onu deyə bilərəm ki, ziyalılarımızın əksəriyyətində dinə laqeyd münasibət var. Çoxları, zahirən bildirməsələr də, ateist olaraq qalırlar. Məclislərdə din xadimlərinin danışığına qulaq asmayaraq, öz aralarında söhbət edirlər. Hətta məclisi aparan quran oxumağa başlayacağına görə onlardan bir müddət sakit durmağı xahiş edəndə belə, söhbətlərini davam etdirirlər ki, bu da ən adi etik qaydaların pozulması deməkdir. Belə halların hamımız dəfələrlə şahidi oluruq.

Əgər ziyalılar belə məclislərin dinləyicisi olub, fəal iştirakçısına çevrilsələr, tamam başqa nəticə alınar. Həm məclisi aparan din xadimi öz danışığına daha məsuliyyətlə yanaşar, həm də belə olmayan təqdirdə ziyalılar onunla polemikaya girər, naməlum mətləblər aydınlaşar. Ümumilikdə isə dinə bələd ziyalılar müvafiq olan hər yerdə dinimizlə bağlı maarifçilik işi aparmalıdırlar.

**– Milli mentalitet, dövlətçilik təfəkkürü və demokratiya əxlaqının tam formalaşmasında bədii ədəbiyyatın tarixi missiyası nədən ibarətdir?**

– Bədii ədəbiyyatın missiyası zaman-zaman dəyişmişdir. Azərbaycanda və bütün türk dünyasında, Yaxın və Orta Şərqdə poeziyanın fatehlik gücünü Füzuli yaradıcılığı nümayiş etdirdi, II Yekaterinanın "Puqaçovdan da qorxulu düşmən" adlandırdığı Radişşevin "Moskvadan Peterburqa səyahət" əsəri böyük imperiyanı silkələdi, onu islahatlar keçirməyə məcbur etdi. 1958-ci ildə Macarıstan üsyanını alovlandıran qığılcım Şandor Petefinin şeirləri oldu və s. Bədii ədəbiyyatdan bu gün belə təsir gözləmək əbəsdir.

Ən əvvəl ona görə ki, bədii ədəbiyyat çoxdan kütləvi oxucusunu itirib, olan oxucuların da əksəriyyəti ciddi ədəbiyyatı yox, dedektiv ədəbiyyatı mütaliə edir. İkincisi ona görə ki, artıq zamanın belə ədəbiyyata tələbatı yoxdur. Beləliklə, bədii ədəbiyyatın sizin sadaladığınız tarixi missiyasını bitmiş hesab etmək olar. İndi fikirləri, düşüncələri internet çox çevik və operativ surətdə idarə edir. Burada milli mentalitet, dövlətçilik təfəkkürü və s. bu kimi ciddi anlayışlara yer yoxdur.

**– Biz son zamanlar bir cox qlobal problemlərin həlli üçün Şərqlə Qərbin vəhdəti ideyasından çıxış edirik. Burada milli təfəkkürümüzə, milli düşüncəmizə, xəlqilik prinsiplərinə daha artıq istinad etsək, uğurlarımızın sayı artmazmı?**

– Söhbət qloballaşma prosesindən gedə bilər. Bu proses dünyaya açıq olan ölkələrin hamısını əhatə edir və obyektiv təsir gücünə malik olan ikitərəfli və çoxtərəfli prosesdir. Bu prosesdə bu və ya digər cəmiyyət nəyə ehtiyacı varsa, alır, ehtiyacı olan cəmiyyətə özününkünü verir. Və burada əsas məsələ alınanla verilənin nisbətindədir.

Qərb qloballaşmaya öz xeyrinə işləyən proses kimi baxır: zəngin və çoxşaxəli kommunikasiya vasitələri ilə özünün cəlbedici "kütləvi mədəniyyət"ini digər ölkələrə, xüsusən müsəlman ölkələrinə ötürməklə onların milli mənliklərinin zəifləməsinə nail ola bilər və bundan sonra onların təsir dairəsinə alınması da asanlaşar. Qloballaşmanın opponentləri də onun mənfi cəhəti və ya təhlükəsi kimi məhz bu amili qeyd edirlər.

Qloballaşma və Azərbaycan məsələsinə gəldikdə isə tamam başqa – dünyanın heç bir yerində görünməyən mənzərə ilə qarşılaşırıq. Azərbaycan dövlətinin yürütdüyü bənzərsiz siyasi xətt nəticəsində Qərbə Qərbdən ala biləcəyimizdən daha çox öz mədəniyyətimizi ötürürük. Biz hadisələrin içində olduğumuza görə, bəlkə də, dərk etmirik ki, heç vaxt heç bir ölkənin edə bilmədiyi bir səviyyədə

dünyaya istiqamətlənmiş strateji mədəni proqram həyata keçiririk. Bu, iki istiqamətdə baş verir. Birincisi və ən əsası öz mədəniyyətimizi ixrac edir, ikincisi, Azərbaycanda mütəmadi keçirilən müxtəlif beynəlxalq mədəni və digər tədbirlərin iştirakçısı olan Qərb insanına öz mədəniyyətimizi aşılayırıq. Faktlar hamıya məlumdur, onların üzərində dayanmaq istəmirəm, təkcə muğam sənətimizin Avropada və dünyada təbliği sahəsində sistemli şəkildə həyata keçirilən geniş miqyaslı tədbirləri xatırlamaq kifayətdir. Heydər Əliyev Fondunun bu sahədəki misilsiz xidmətlərini qeyd etməliyik. Nəticədə, bu vasitə ilə Qərb qarşısında milli mənliyimizi daha qürurla dərk edir və ona daha çox sahib oluruq.

– **Jurnalist, qələm adamı olmaq, qələmiylə həqiqəti tapmaq və yazmaq özü zor işdir. Belə ağır yükü çiynində daşıyan şəxsin üzərinə həm də böyük məsuliyyət düşür – xalqın taleyi, həqiqət axtarmaq, millətə yararlı olmaq, insanı qiymətləndirmək. Çətindir, deyilmi?**

– Hakim dairələrə və xalqın həyatına birbaşa təsir göstərmək imkanına malik olduğuna görə jurnalistika bədii ədəbiyyata nisbətən daha mühüm missiyanı yerinə yetirir. Xalqımızın jurnalist korpusu ən məşhur adlarla zəngindir. Həsən bəy Zərdabi, Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə, Əhməd Ağayev, Üzeyir Hacıbəyov və adını çəkmədiyim bir çox başqaları ötən əsrin əvvəllərində jurnalistikamızı yaradıb, onu inkişaf etdirdilər. Sovet cəmiyyətində Ağababa Rzayev, Nəsir İmanquliyev, Cahangir Gözəlov, Seyfəddin Dağlı, Cəmil Əlibəyov, Şamil Fərzəliyev, Nəcəf Nəcəfov, Əli İldırımoğlu, Əhməd İsayev, Yusif Kərimov və başqalarının yaradıcılığı dövrün həyatında dərin izlər buraxmışdır.

Təəssüf ki, müstəqillik dövrünün jurnalistikası, mətbuatımızın gözəl ənənələrini inkişaf etdirən azsaylı qəzetlər istisna olmaqla, yüzlərlə əqidəsiz və səviyyəsiz nəşrlərdən ibarətdir. Onların səhifələri yalan, iftira və böhtanla doludur. Hansısa bir dəyərli ideyanın daşıyıcısı olan qəzetlərdə çalışanların da əksəriyyəti savadsız olduqlarına görə bu ideyanın ifadə forması təsir gücünə malik deyil. Bu fikirlər Azərbaycanda yaradılıb fəaliyyət göstərən internet saytlarına da aiddir. Oçerk, felyeton, reportaj kimi janrlar tamamilə aradan çıxıb. Beləliklə də, mənim nəzərimcə, Azərbaycan mediası bu gün dərin böhran içindədir.

Azərbaycanın görkəmli dilçi alimlərinin – Əbdüləzəl Dəmirçizadə, Məmmədağa Şirəliyev, Hadi Mirzəzadə, Muxtar Hüseynzadə, Ağamusa Axundov və digərlərinin fədakar səyi, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahim, Süleyman Rəhimov, Mehdi Hüseyn, Mir Cəlal, Əbülhəsən və digər məşhur ədiblərimizin yaradıcılığı ilə türk dilləri arasında ən gözəl dilə çevrilmiş və dünya dilləri sırasında yuxarı yerlərin birini tuta biləcək Azərbaycan dili bu gün dərin böhran keçirir. Mətbuata daraşmış savadsızlar ana dilimizlə istədikləri kimi etinasız davranır, biz ziyalılar isə buna çox zəif etiraz edirik.

Mediadakı mətnlərin üzərində durmuram – təxminən hər beş cümlədən ikisi Azərbaycan dilində deyil. İnternet saytlarından bir neçə sərlövhəni diqqənizə çatdırıram: "Ombudsmanın MPM qrupunun üzvləri Saraydakı internat evinə başçəkmə həyata keçiriblər"; "Patriot"ların quraşdırılacağı yer bəlləndi"; "Aeroport yolunda 4 maşın bir-birinə girdi"; "BMT-ni tikən əfsanə öldü"; "Türkiyə mətbuatı Röyanı danışır"; "İspaniyada portuqal olmaq çətindir"; "İran Prezidenti region ölkələrinə səsləndi"; " Nazir vergi qaçırmaqda ittiham olunur" və s. Həqiqətən, sizin dediyiniz kimi, jurnalist peşəsi ağır, məsuliyyətli peşədir və bu dərk olunmayanda, acınacaqlı hallar baş verir...

**– Siz qələm adamısınız, həm də əməkdar jurnalistsiniz. Zaman hər şeyə işıq salır – bunu yaşlandıqca başa düşür insan. Bu mənada, Əlirza müəllim, üstündən qələm çəkməli olduğunuz nələr var?**

– İnsan özü bir orqanizm olduğu kimi, onun həyatı da bir orqanizm kimi təkamülünü keçirir. İnsan orqanizmi qanunauyğunluqlar əsasında mövcud olduğu kimi, onun həyatı da qanunauyğunluqlardan ibarətdir. Bu mənada yaxşı ilə pisin özü bir-birilə dialektik vəhdət təşkil edir. Həyatımda üstündən qələm çəkməli olduğum heç nə yoxdur.

***Müsahibəni apardı :Afaq Əbdülqızı***
*"Cəmiyyət və din qəzeti "*
*24 yanvar 2013- cü il*